USAID
AMERİKA XALQINDAN

EDF
SBIIYF

# SAHİBKARLIĞIN İNKİŞAFI FONDUNUN KREDİTLƏRİ *mövzusu üzrə video dərs*

İLKİN QARAYEV

**Bakı - 2020**

# Güzəştli kredit nədir

**Güzəştli kredit –** faiz dərəcələrinin bazarda mövcud olan digər kreditlərdən daha aşağı olması, qaytarılma və güzəşt müddətinin daha uzun olması ilə fərqlənən kreditlərə demək olar.



# Sahibkarlığın inkişafı fondu

Ölkəmizdə sahibkarlara güzəştli kreditlər təklif edən əsas mənbə Sahibkarlığın İnkişafı Fondudur (SİF). Bu Fond iri müəssisələrlə yanaşı kiçik və orta müəssisələrə də güzəştli kreditlər təklif edir. Kiçik həcmli kreditlər 5000 manatdan 50000 manatadək, orta həcmli kreditlər isə 50001 manatdan 1000000 manatadək məbləğlərdə təqdim olunur.

# SİF-nun maliyyələşdirdiyi sahələr

**SİF əsasən aşağıdakı sahələrə güzəştli kreditlər ayırır:**

- startap layihələri
- turizmin inkişafı
- meyvə-tərəvəz məhsullarının emalı
- ət kəsimi, ət və süd emalı
- intensiv bağçılıq və tingçilik
- xalq sənəti nümunələrinin istehsalı və s.

# Güzəştli kreditləri əldə etmək hara müraciət etməli

Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərini əldə etmək üçün sahibkarlar aidiyyəti sənədləri təqdim etməklə yalnız müvəkkil kredit təşkilatlarının baş ofisinə və ya filiallarına müraciət edə bilərlər. Bu təşkilatların siyahısını http://edf.gov.az internet səhifəsindən əldə etmək olar.

# Güzəştli kreditləri əldə etmək hara müraciət etməli

Sahibkarlığın inkişafına dövlətin zəmanətli krediti və subsidiya dəstəyi almaq üçün pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlar Elektron Kredit Platforması vasitəsi ilə Fonda müraciət edə bilərlər.

# Tələb olunan sənədlər

**Müvəkkil kredit təşkilatlarına fiziki şəxslər tərəfindən təqdim edilən ilkin sənədlər bunlardır:**

- İnvestisiya layihəsi (biznes plan)
- Dövlət qeydiyyatı haqqında şəhadətnamənin (VÖEN) notarial qaydada təsdiq olunmuş surəti
- Şəxsiyyət vəsiqəsinin təsdiq olunmuş surəti
- Təqdim edilən investisiya layihəsi üzrə fəaliyyət göstəriləcək yerə və ya əmlaka dair hüquqları təsdiq edən

# Tələb olunan sənədlər

Müvəkkil kredit təşkilatlarına hüquqi şəxslər tərəfindən təqdim edilən ilkin sənədlərə isə, əvvəlki səhifədə göstərilən sənədlərdən əlavə dövlət reyestrindən çıxarış, direktorun təyin olunması ilə əlaqədar qərar kimi sənədlərin notarial qaydada təsdiq olunmuş surətini təqdim etmək lazımdır. Sənədlərin tam siyahısı ilə SİF-nun internet səhifəsindən tanış olmaq olar.

# Sənədlərə baxılma müddəti

Sahibkar kredit üçün tələb olunan sənədləri təqdim etdiyi andan 10 (on) bank günündən gec olmayaraq müvəkkil kredit təşkilatı kreditin verilib verilməməsi ilə bağlı qərar qəbul edir və sahibkara bildirir.

Qarşılıqlı razılıq əldə edildikdən sonra müvəkkil kredit təşkilatı sənədləri SİF-na təqdim edir. SİF təqdim olunmuş layihələri 10 (on) bank günü müddətində ekspertizadan keçirir, müraciətin təmin olunması və ya ondan imtina

# SİF-nun kreditlərinin müddəti

**SİF-nun kreditləri aşağıdakı müddətlərə verilir:**

- Kiçik həcmli kreditlər - 3 (üç) elədək
- Orta həcmli kreditlər - 5 (beş) ilədək
- Böyük həcmli kreditlər - 10 (on) ilədək.

AZƏRBAYCAN RESPUBLİKASI
İQTİSADİYYAT NAZİRLİYİ
**SAHİBKARLIĞIN İNKİŞAFI FONDU**

# SİF-nun kreditlərinin faiz dərəcələri

Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin illik faiz dərəcəsi 1 faiz, müvəkkil kredit təşkilatlarının tətbiq etdikləri illik faiz dərəcəsi isə 4 faizdən artıq olmamaq şərti ilə, ümumilikdə güzəştli kreditlərin illik faiz dərəcəsi 5 faizədək müəyyən edilib.

# Girov təminatı

Sahibkarlığın İnkişafı Fondunun kreditlərinin yalnız müvəkkil kredit təşkiilatları vasitəsi ilə verildiyi üçün, kreditin təminatı kimi sahibkarlıq subyektinin təklif etdiyi əmlakın və digər təminat formalarının girov götürülməsinin mümkünlüyü müvəkkil kredit təşkilatları tərəfindən müəyyənləşdirilir.

# SİF-nun kreditləri üzrə ödənişlər

Sahibkarlıq subyektləri aldıqları güzəştli kreditlər üzrə faiz borclarını hər ayın son iş gününədək ödəməlidirlər. Əsas borc isə güzəşt müddəti bitdikdən sonra qalan müddət ərzində növbəti aydan başlayaraq hər ayın son iş gününədək hesablanıb ödənilir.

# DİQQƏTİNİZƏ GÖRƏ ÇOX SAĞ OLUN!

